Current status of import activities on the chemical industry in the Republic of Azerbaijan

Farid Khankishiyev
PhD student, Odlar Yurdu University, teacher, Lankaran State University,
Department of Economics and Innovative Management, Azerbaijan.
E-mail: ferid_khan@mail.ru
https://orcid.org/0000-0001-6357-1706

Annotation. The article analyzes the import indicators of the chemical industry, rubber and plastic products of the Republic of Azerbaijan, considers the intervals of change of individual chemical products, rubber and plastic products imported to the country for the last five years. In order to properly develop the existing potential for the development of the chemical industry, stimulating steps taken by state to reduce the volume of imported products, increase production are shown, and practical recommendations for development prospects are offered. The author concludes that although there is an improvement in the legal framework, government support, and an increase in the number of stimulus measures to reduce the share of imports in the chemical industry, this increase in domestic production is not significant. In this regard, companies encouraging entrepreneurs in the petrochemical industry should be more alternative.
Keywords: chemical industry, rubber and plastic products, pharmaceuticals, imports.

http://dx.doi.org/10.29228/edu.332
JEL F10; L65; **UDC** 339.5
To cite this article: Khankishiyev F. (2021). Current status of import activities on the chemical industry in the Republic of Azerbaijan. *Economic Growth and Social Welfare*, Issue I, pp. 127-136.
Article history: Received – 20.12.2020; Accepted – 13.03.2021

Azərbaycan Respublikasında kimya sənayesi üzrə idxal fəaliyyətinin müasir vəziyyəti

Fərid Xankişiyev
Doktorant, Odlar Yurdu Universiteti, müəllim, Lənkəran Dövlət Universiteti,
İqtisadiyyat və innovativ idarəetmə kafedrası, Azərbaycan.
E-mail: ferid_khan@mail.ru
https://orcid.org/0000-0001-6357-1706

Annotasiya. Məqalədə Azərbaycan Respublikasının kimya sənayesi məhsullarının, rezin və plastik kütlə məmulatlarının idxal göstəriciləri təhlil edilir, ölkəyə idxal olunan ayrı-ayrı kimya sənayesi məhsulları, rezin və plastik kütlə məmulatlarının son beş il üzrə dəyişmə intervalları nəzərdən keçirilir. Ölkədə kimya sənayesinin inkişaf etdirilməsi üçün mövcud potensialın düzgün dəyərləndirilməsi, idxal olunan məhsulların həcminin azaldılması, istehsal həcminin artırılması üçün dövlət tərəfindən atılan stimullaşdırıcı addımlar göstərilir və inkişaf perspektivləri üçün praktik tövsiyələr verilir. Müəllif belə nəticəyə gəlir ki, kimya sənayesi üzrə idxal payının azaldılması məqsədilə bu sahə üzrə qanuni bazasının təkmilləşdirilməsi, dövlət tərəfindən dəstəklərin göstərilməsi, stimullaşdırıcı addımların sayının artırılması müşahidə olunsa da, ölkə daxilində istehsal tempində bu artım nəzərəçarpan səviyyədə deyil. Bu baxımdan neft-kimya sənayesi üzrə sahibkarların təşviq kompaniyaları daha alternativli olmalıdır.
Açar sözlər: kimya sənayesi, rezin və plastik kütlə məmulatları, əczaçılıq məhsulları, idxal.

http://dx.doi.org/10.29228/edu.332
JEL F10; L65; **UDC** 339.5
Məqaləyə istinad: Xankişiyev F. (2021). Azərbaycan Respublikasında kimya sənayesi üzrə idxal fəaliyyətinin müasir vəziyyəti. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 127-136.
Məqalə tarixçəsi: göndərilib – 20.12.2020; qəbul edilib – 13.03.2021

Giriş / Introduction

Kimya sənayesi maddi istehsalın müxtəlif sahələri ilə geniş əlaqələri olan sənaye sahəsidir. Kimya sənayesi olmadan yanacaq-enerji kompleksinin, metallurgiya, nəqliyyat, rabitə, tikinti, elektronika, əczaçılıq və bu kimi sahələrin inkişafı qeyri-mümkündür. Ümumiyyətlə, bu sahə kimyəvi qarışıqdan istehsal olunan məhsullar hazırlayan, istehsal edən və satan şirkətləri əhatə edir.

Kimya sənayesi istər kimyəvi maddələrin hazırlanmasına, istərsə də digər istehsal sahələrində geniş istifadə olunan önəmli məhsullarına görə mühüm əhəmiyyət daşıyır. Bunun məntiqi nəticəsidir ki, son dövrlərdə dünya ölkələr kimya sənayesi məhsullarının istehsalına daha çox diqqət ayırır və ya istehsal imkanı olmayan ölkələr isə bu sektorun məhsullarını artan temp üzrə idxal edərək öz ehtiyaclarını ödəyirlər.

2019-cu il qlobal səviyyədə kimya sənayesi üzrə gəlir göstəricisi 4,083 milyard ABŞ dolları olmuşdur (GCI, 2020). Kimya sənayesi üzrə ən çox məhsul idxal edilən region Avropa regionudur. Belə ki, təkcə 2019-cu ildə 553,3 milyard dollar həcmində məhsul bu qitəyə idxal edilmişdir. Növbəti region – Asiya-Sakit okean (500,5 milyard dollar həcmində məhsul), 3-cü yerdə olan region isə Şimali Amerika (165,7 milyard dollar həcmində məhsul) regionudur. 2019-cu ilin nəticələrinə əsasən bu üç region üzrə kimya sənayesi üzrə idxal göstəriciləri 1169,5 milyard ABŞ dollarına bərabər olmuşdur ki, bu da həcm etibarı ilə böyük pay nisbəti hesab edilə bilər (CIW, 2020).

Azərbaycan Respublikasında neft-kimya sənayesi üzrə məhsulların idxal-ixrac göstəricilərinə əsasən, bu istiqamətdə son 5 il üzrə artım tempi 59,4%-ə bərabərdir. Maraqlısı odur ki, bu sahə üzrə ixrac göstəricilərinin də son 5 il üzrə artmasına baxmayaraq, 2019-cu ilin göstəricilərinə əsasən idxalla müqayisədə 10 dəfəyə yaxın fərq görünməkdədir (AXT, 2020, s.59).

Ölkəmizdə qeydə alınan statistik rəqəmlər onu deməyə imkan verir ki, neft-kimya sənayesi üzrə məhsul istehsalının həcminin artırılması, ən azından yerli ehtiyacın çox hissəsinin, növbəti mərhələdə tam hissəsinin və ixrac potensialının artırılması istiqamətində sürətləndirilmiş addımlar atılmalıdır. Son dövrlərdə bu sahəyə artan diqqətinin təzahürüdür ki, müxtəlif neft-kimya sənayesi müəssisələri tikilir, yerli və xarici investorların maraqları baxımından bu istiqamətdə yatırımlar edilir. Bu da gələcəklə bağlı ümidlərin artmasına səbəb olur. Eyni zamanda onu da qeyd etməliyik ki, ölkəmiz dünyanın bir çox ölkələri, eyni zamanda təşkilatları ilə əməkdaşlıq edir, bu əməkdaşlıqların sayı ilbəil artmaqdadır. Ölkələr arasında bağlanan ikitərfli sazişlərin çox olması ölkəmizə idxal olunan neft-kimya sənayesi məhsullarının potenisal satıcılarının artırılmasına kömək edir. Bu da daha ucuz qiymətə, eyni zamanda daha keyfiyyətli idxal məhsulları əldə etməyimiz baxımından vacibdir. Belə tərəfdaşlıqların sayının artırılması, gələcəkdə Azərbaycanda istehsal olunan neft-kimya məhsullarının xarici bazarlara çxıarılması üçün də böyük önəm kəsb etməkdədir.

Neft-kimya məhsullarının sadəcə idxal edilməsi baxımından atılan addımlara fokuslanmaq sadəlövlük olardır. Belə ki, ölkədə bu sahə üzrə daha məqsədyönlü fəaliyyət mexanizmli formalaşdırılmalı, bazar böyük həcmdə yerli məhsullarla təmin olunmalıdır.

Tədqiqatın məqsədini istər ölkə daxilində neft-kimya sənayesi məhsullarının istehsal tempinin artırılması istiqamətində atılan addımları araşdırılması, istərsə də bu sahə üzrə idxal bazarında ölkəmizin alternativliyinin artırılması baxımından beynəlxalq əməkdaşlıqların önəminin təhlili, yerli bazarda yetərli məhsul bolluğu yaradılmaqla yanaşı, ixrac potensialımızın yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

Kimya sənayesi üzrə istər ölkə daxilində, istərsə də xaricdə çoxsaylı araşdırmalar aparılmış və hazırda da bu proses davam etməkdədir. Azərbaycan Respublikasında bir çox müəlliflər öz kitablarında, əsərlərində, məqalələrində birbaşa neft-kimya sənayesinin idxal göstəriciləri ilə bağlı olmasa da, geniş anlamda, bu sahədə mövcud problemlərdən, istehsalın artırılması perspektivlərindən, ixrac potensialının artırılmasından və s. istiqamətlərdə bəhs etmişlər. Məlum olduğu kimi, idxal payının azaldılması üçün ölkədə istehsalın həcminin yüksəlməsi, bu sahəyə meyl göstərən sahibkarların sayının artımı hesabına daha tez bir müddətdə müsbət nəticələr əldə oluna bilər. Bu baxımdan, R. Əliyevin 2010-cu ildə çap etdirdiyi "Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının sosial-iqtisadi problemləri" kitabında sahibkarlıq sahəsində mövcud olan problemlər və onların həlli istiqamətində araşdırmalar qeyd edilmişdir. Eyni zamanda T. Əliyev və B. Yazarın birgə çap etdirdikləri "Azərbaycanın kimya sənayesində sahibkarlıq mühitinin formalaşması və davamlı inkişafının başlıca istiqamətləri" adlı monoqrafiyasında ölkəmizdə bu sahə üzrə sahibkarlıq subyektlərinin fəaliyyəti, onların illər üzrə artım templəri, regionlarda və eyni zamanda paytaxtımızda bu sahədə həyata keçirilən stimullaşdırıcı tədbirlər, müasir dövrdə bu

istiqamət üzrə qeydə alınan çətinliklərin həlli istiqamətləri barədə məlumatlar verilmişdir.

Ölkəmizdə daha çox bu sahə üzrə ixrac və inkişaf perspektivləri ilə bağlı problemləri tədqiq edilmiş, kimya sənayesi üzrə idxal əməliyyatlarının təhlili barədə isə geniş tədqiqatlar aparılmamışdır. Kimya sənayesi üzrə son dövrlərdə atılan addımlar bu istiqamətin daha çox maraq dairəsində olacağını göstərir.

Metodologiya

Tədqiqatın yerinə yetirilməsi prosesində müqayisə, sistemli təhlil, ümumiləşdirmələrdən istifadə edilmişdir. Tədqiqat zamanı əsas informasıya bazası kimi dünya üzrə kimya sənayesi göstəriciləri ilə bağlı hesabatlar təqdim edən “statista.com” mənbəyi, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabatları təşkil edir.

Nəticələr

Ölkə üzrə ümumi idxalda kimya sənayesinin yeri

Ölkəmizdə istər kimya sənayesi məhsulları, istərsə də rezin və plastik kütlə məmulatlarından istifadə göstəriciləri son dövrlərdə daha da artmaqdadır. İstər müxtəlif sahələrin, istərsə də ayrı-ayrı fərdlərin bu mallara olan ehtiyacını ödəmək üçün ölkəmizə bu iki istiqamət üzrə müxtəlif məhsullar idxal olunmaqdadır.

İlk öncə, kimya sənayesi məhsulları, rezin və plastik kütlə məmulatlarının idxalı üzrə statistik rəqəmlərə nəzər yetirək (Cədvəl 1).

Cədvəldəki məlumatlara əsasən, kimya sənayesinin idxal həcmi digər rezin və plastik kütlə məmulatlarının istehsalına nisbətdə daha çoxdur. Belə ki, bu göstərici üzrə kimya sənayesi rezin və plastik kütlə məmulatlarının istehsalı sahəsini təxminən 2 dəfə üstələyir. İdxalın sahələr üzrə ümumi həcmindəki pay göstəricisinə nəzər yetirildikdə, 2018-ci və 2019-cu illərdə hər iki istiqamət üzrə artım müşahidə olunur.

Kimya sənayesində idxal göstəriciləri üzrə 2016-cı ildən etibarən əvvəlki illə müqayisədə artım tempi müşahidə olunan məhsullar kimyəvi üzvi birləşmələri, efir yağları, ətriyyat, kosmetika və tualet vasitələrini, sabun, yuyucu vasitələr və analoji məmulatları, zülal tərkibli maddələr, nişasta və yapışqan, fermentləri və digər kimyəvi məhsullardır. Bazis ili ilə müqayisədə isə 2019-cu ildə bütün kimya sənayesi məhsulları üzrə artım müşahidə olunmaqdadır.

2019-cu ildə həcm etibarı ilə ən çox idxal olunan kimya sənayesi məhsulu qeyri-üzvi kimyanın məhsullarıdır. Eyni zamanda bu qrup üzrə məhsullar 2018-ci illə müqayisədə ən böyük artım faizinə malik olmuşdur. Son iki ilin göstəricilərinin müqayisəsi zamanı görürük ki, ən çox azalma tempi olan məhsul kimyəvi üzvi birləşmələrdir.

2019-ci ildə bazis ili ilə müqayisədə idxal həcmində ən çox artım olan məhsullar zülal tərkibli maddələr, nişasta və yapışqan, fermentləri və efir yağları, ətriyyat, kosmetika və tualet vasitələridir.

Rezin və plastik kütlə məmulatları üzrə 2016-cı ildən bəri artım müşahidə olunmaqdadır. 2019-cu ildə 2018-ci və eyni zamanda bazis ili müqayisədə ən çox artım tempi kauçuk, rezin və onlardan hazırlanan məmulatlar, plastik kütlələrində müşahidə olunmuşdur.

Ümumiyyətlə, idxal olunan kimya sənayesi malları qrupunun tərkibində plastik kütlələr və onlardan hazırlanan məmulatlar ən böyük çəkiyə malikdir. Həcm etibarı ilə ölkəyə ən az idxal olunan mal qruplarını isə partlayıcı maddələr, pirotexnika məmulatları, kibrit məhsulları, foto və kino malları təşkil edir.

Cədvəl 1. Kimya sənayesinin, rezin və plastik kütlə məmulatlarının və əczaçılıq məhsullarının idxal həcmi (mlyn. man.), (2015-2019)

Göstəricilər	2015	2016	2017	2018	2019
Kimya sənayesi					
İdxalın həcmi (min ABŞ dolları) və məhsulların idxalda xüsusi çəkisi	705009,4	711 052,2	831 329,6	977 158,4	1 123 573,5
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 2,2%	+ 0,9%	+ 16,9%	+ 17,5%	+ 15,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 0,9%	+ 17,9%	+ 38,6%	+ 59,4%
Qeyri-üzvi kimyanın məhsulları, qiymətli metallar	89568,9	76 851,4	88 941,2	114 041,4	186 847,3
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 9,3%	- 14,2%	+ 15,7%	+ 28,2%	+ 63,8%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 14,2%	- 0,7%	+ 27,3%	+ 108,6%
Kimyəvi üzvi birləşmələr	21926,3	37 062,6	52 431,4	54 091,9	43 721,1
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 35,2%	+ 69,0%	+ 41,5 %	+ 3,2%	- 19,2%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 69,0%	+ 139,1%	+ 146,7%	+ 99,4%
Gübrələr	69339,3	51 940,3	54 808,5	90 286,2	114 308,1
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 7,5%	- 25,1%	+ 5,5%	+ 64,7%	+ 26,6%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 25,1%	- 21,0%	+ 30,2%	+ 64,9%
Aşılayıcı və boyayıcı ekstraktlar, boyalar və laklar	30351,8	54 783,3	47 802,3	58 414,6	59 758,1
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	+10,9%	+ 80,5%	- 12,7%	+ 22,2%	+ 2,3%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 80,5%	+ 57,5%	+ 92,5%	+ 96,9%
Efir yağları, ətriyyat, kosmetika və tualet vasitələri	40326,0	91 283,7	105 064,9	118 628,9	141 614,5
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 12,7%	+ 126,4%	+ 15,1%	+ 12,9%	+ 19,4%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 126,4%	+ 160,5%	+ 194,2%	+ 251,2%
Sabun, yuyucu vasitələr və analoji məmulatlar	85089,0	87 721,5	99 013,1	105 834,4	99 455,0
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 17,0%	+ 3,1%	+ 12,9%	+ 6,9%	- 6,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 3,1%	+ 16,4%	+ 24,4%	+ 16,9%
Zülal tərkibli maddələr,nişasta və yapışqan, fermentlər	4170,8	12 228,0	13 021,0	13 978,2	14 652,9
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 3,0%	+ 193,2 %	+ 6,5%	+ 7,4 %	+ 4,8%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 193,2 %	+ 212,2%	+ 235,1%	+ 251,3%
Partlayıcı maddələr pirotexnika məmulatları,kibrit	5635,5	5 406,6	6 055,2	6 366,7	7 928,8
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 35,9%	- 4,0%	+ 12,0%	+5,1%	+ 24,5%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 4,0%	+ 7,5%	+ 13,0%	+ 40,7%
Foto və kino malları	2525,1	4 113,9	2 982,2	3 377,8	4 026,4
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	+ 12,4%	+ 62,9%	- 27,5%	+ 13,3%	+ 19,2%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 62,9%	+ 18,1%	+ 33,8%	+ 59,5%
Digər kimyəvi məhsullar	85392,2	94 238,7	112 194,0	121 954,1	154 729,5
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 11,0%	+ 10,4%	+ 19,1%	+8,7%	+ 26,9%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 10,4%	+ 31,4%	+ 42,8%	+ 81,2%
Rezin və plastik kütlə məmulatları istehsalı					
İdxalın həcmi, min ABŞ dolları	259757,9	376 208,9	427 974,6	481 719,0	537 539,4
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 13,5%	+ 44,8%	+ 13,8%	+ 11,3%	+ 11,6%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 44,8%	+ 64,8%	+ 85,5%	+ 106,9%
Plastik kütlələr və onlardan hazırlanan məmulatlar	204773,6	280 889,6	318 187,0	367 429,8	403 970,5
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 15,2%	+ 37,2%	+ 13,3%	+ 15,5%	+ 10,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 37,2%	+ 55,4%	+ 79,4%	+ 97,3%
Kauçuk , rezin və onlardan hazırlanan məmulatlar	54984,3	95 319,3	109 787,6	114 289,2	133 568,9
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 6,3%	+ 62,5%	+ 15,2%	+ 4,1%	+ 16,9%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 62,5%	+ 99,7%	+ 107,9%	+ 142,9%

Mənbə: AXT (2020).

Kimya sənayesi, rezin və plastik kütlə məmulatları və əczaçılıq məhsullarının idxalının ümumi idxaldakı paylarının təhlili isə aşağıdakı cədvəl 2-də öz əksini tapmışdır.

Cədvəl 2. Kimya sənayesinin, rezin və plastik kütlə məmulatlarının və əczaçılıq məhsullarının idxal həcminin ümumi idxaldakı pay göstəriciləri (2015-2019)

Göstəricilər	2015	2016	2017	2018	2019
İdxalın həcmi (min ABŞ dolları) və məhsulların idxalda xüsusi çəkisi	7,6	8,4	9,5	8,5	8,2
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 2,6%	+ 10,5 %	+ 13,1%	- 10,5%	- 3,5%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 10,5 %	+ 25,0%	+ 11,8%	+ 7,9%
Qeyri-üzvi kimyanın məhsulları, qiymətli metallar	1,0	0,9	1,0	1,0	1,4
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 9,1%	- 10,0%	+ 11,1%	0 %	+ 40,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 10,0%	0 %	0 %	+ 40,0%
Kimyəvi üzvi birləşmələr	0,2	0,4	0,6	0,5	0,3
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 50,0%	+ 100,0%	+ 50,0%	- 16,7%	- 40,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 100,0%	200,0%	150,0%	+ 50,0%
Gübrələr	0,8	0,6	0,6	0,8	0,8
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	- 25,0%	0%	+ 33,3%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 25,0%	- 25,0%	0%	0%
Aşılayıcı və boyayıcı ekstraktlar, boyalar və laklar	0,3	0,7	0,5	0,5	0,4
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	+ 133,0%	- 28,6%	0%	- 20,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 133,0%	+ 66,7%	+ 66,7%	+ 33,3%
Efir yağları, ətriyyat, kosmetika və tualet vasitələri	0,5	1,1	1,3	1,0	1,0
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	+ 120,0%	+ 18,2%	- 23,0%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 120,0%	+ 160,0%	100,0%	100,0%
Sabun, yuyucu vasitələr və analoji məmulatlar	0,9	1,0	1,1	0,9	0,7
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 18,2%	+ 11,1%	+ 10,0%	- 18,2%	- 22,2%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 11,1%	+ 22,2%	0%	- 22,2%
Zülal tərkibli maddələr,nişasta və yapışqan, fermentlər	0,0	0,1	0,1	0,1	0,1
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	+ 10,0%	0%	0%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 10,0%	+ 10,0%	+ 10,0%	+ 10,0%
Partlayıcı maddələr pirotexnika məmulatları,kibrit	0,1	0,1	0,1	0,1	0,1
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	0%	0%	0%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	0%	0%	0%	0%
Foto və kino malları	0,0	0,1	0,0	0,0	0,0
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	0%	+ 10,0%	- 10,0%	0%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 10,0%	0%	0%	0%
Digər kimyəvi məhsullar	0,9	1,1	1,4	1,1	1,2
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 10,0%	+ 22,2%	+ 27,3%	- 21,4%	+ 9,1%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 22,2%	+ 55,6%	+ 22,2%	+ 33,3%
Rezin və plastik kütlə məmulatları istehsalı					
İdxalın həcmi, min ABŞ dolları	2,8	4,4	4,9	4,2	3,9
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 15,2%	+ 57,1%	+ 11,4%	- 14,3%	-7,1%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 57,1%	+ 75,0%	+ 50,0%	+ 39,3%
Plastik kütlələr və onlardan hazırlanan məmulatlar	2,2	3,3	3,6	3,2	2,9
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 15,4%	+ 50,0%	+ 9,1%	- 11,1%	- 9,9%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 50,0%	+ 63,6%	+ 45,5%	+ 31,8%
Kauçuk , rezin və onlardan hazırlanan məmulatlar	0,6	1,1	1,3	1,0	1,0
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	- 14,3%	+ 83,3%	+ 18,2%	- 23,1%	0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 83,3%	+ 116,7%	+ 66,7%	+ 66,7%
Əczaçılıq məhsullarının istehsalı					
İdxalın həcmi, min ABŞ dolları	2,9	2,3	2,8	2,5	2,2
əvvəlki il ilə müqayisədə dəyişmə faizi	+ 16,0%	- 20,7%	+21,7%	- 10,7%	- 12,0%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 20,7%	- 3,4%	- 13,8%	- 24,1%

Mənbə: AXT (2020).

Ölkə üzrə ümumi idxaldakı pay göstəricilərinə əsasən, 2019-cu ildə kimya sənayesi bu sahədə liderdir. İdxal olunan məhsulların miqdarlarının ayrı-ayrılıqda təhlili isə göstərir ki, 2019-ci ildə

plastik kütlələr və onlardan hazırlanan məmulatlar daha yüksək göstəriciyə malikdir.

Onu da qeyd edək ki, kimya sənayesinin, rezin və plastik kütlə məmulatları istehsalı sahəsinin inkişafında önəmli paya sahib olan Sumqayıt Kimya Sənaye Parkının ərazisinin təxminən 85 faizində müəssisələr yaradılmış, 5500-dən çox insan daimi işlə təmin olunmuşdur. 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında istehsal edilmiş 823 milyon manatlıq məhsulun 33 faizi ixrac olunmuşdur. 2020-ci ilin ilk 6 ayı ərzində Sənaye Parkında 534 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) 9,3 faiz paya malik olmuşdur. Həmin dövrdə Parkda ixrac edilmiş 182 milyon manatlıq məhsulun ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil etmişdir.

Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə kimya sənayesinin idxal prosesinin təhlili

Dövlət Statistika Komitəsindən verilən məlumatlara əsasən Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın quruluşu barədə statistik məlumatlarlar aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 3. Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın quruluşu (min ABŞ dol.), (2015-2019)

№	Məhsul bölmələri	2015	2016	2017	2018	2019
1.	Cəmi: (min ABŞ dolları ilə)	**9 216 677,1**	**8 489 140,4**	**8 783 301,4**	**11 464 970,1**	**13 667 237.8**
2.	Yeyinti məhsulları və diri heyvanlar	910 489,8	1 189 753,7	1 282 743,4	1 270 850,5	1 557 988,5
3.	İçkilər və tütün	359 992,6	210 005,1	231 803,7	250 314,4	182 630,1
4.	Qeyri-ərzaq xammalı (yanacaqdan başqa)	211 924,8	187 364,3	231 127,8	313 473,3	362 080,7
5.	Mineral yanacaq, sürtkü yağları, analoji materiallar	150 094,9	282 656,0	378 810,7	723 699,8	827 322,5
6.	Heyvan və bitki mənşəli yağlar, piylər	71 644,9	127 784,8	125 217,2	114 202,0	115 473,6
7.	**Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar**	**838 289,4**	**895 502,4**	**1 040 095,1**	**1 192 774,9**	**1 313 320,8**
8.	Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları	2 362 338,2	1 864 196,2	1 684 694,7	2 173 668,5	2 140 685,9
9.	Maşınlar və nəqliyyat avadanlıqları	3 677 559,5	2 805 307,6	2 933 282,9	3 481 510,9	3 876 353,7
10.	Müxtəlif hazır məmulatları	631 320,6	909 788,7	860 018,5	1 123 907,9	1 161 345,4
11.	Digər kateqoriyalara daxil edilməyən mallar	3 022,4	16 781,6	15 507,4	820 567,9	2 130 036,6

Mənbə: AXT (2020).

2019-cu ilin statistik məlumatlarına əsasən, kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar bölməsi ümumi həcminə görə sıralamada 5-ci yerdədir. Bu bölmə üzrə son ilin statistik rəqəmləri əvvəlki illə müqayisədə 10,1%, 2015-ci il ilə müqayisədə isə 56,7% artmışdır.

Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə idxalın qurluşunda ayrı-ayrı bölmələrin faiz göstəricilərinə əsasən, ümumi idxalın tərkibində kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsulların pay göstəricisi 2019-cu ildə 9,6%-ə bərabər olmuşdur. Bu faiz göstəricisi "Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar" bölməsinin keçən ilki nəticəsindən (10,4%) az, bazis ili olan 2015-ci ilin nəticəsindən (9,1%) isə çoxdur.

Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə əsas idxal olunan məhsullarının siyahısında aşağıdakı kimyəvi məhsulların adlarına rast gəlmək olar:

Cədvəl 4. Əsas kimyəvi məhsulların idxal həcmi (min ABŞ dolları), əvvəlki və bazis ili ilə müqayisəsi, (2015-2019)

Göstəricilər	2015	2016	2017	2018	2019
(min ABŞ dolları)	Kimya sənayesi				
Natrium hidroksidi	**6 779,4**	**5 477,4**	**5 889,4**	**6 384,7**	**6 431,4**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 0,9%	- 19,2%	+ 7,5%	+ 8,4%	+ 0,7%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 19,2%	- 13,1%	- 5,8%	- 5,1%
Mineral gübrələr	**68 824,4**	**51 646,7**	**54 373,4**	**89 083,0**	**113 249,6**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 7,9%	- 25,0%	+ 5,3%	+ 63,8%	+ 27,1%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 25,0%	- 21,0%	+ 29,4%	+ 64,6%
Sabun	**9 160,3**	**19 467,3**	**23 253,3**	**23 270,5**	**23 988,0**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 8,9%	+ 112,5%	+ 19,5%	+ 0,1%	+ 3,1%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 112,5%	+ 153,9%	+ 154,0%	+ 161,9%
Sintetik yuyucu maddələr	**68 029,5**	**57 105,3**	**63 216,5**	**67 548,7**	**65 134,6**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 21,9%	- 16,1%	+ 10,7%	+ 6,9%	- 3,6%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 16,1%	- 7,1%	- 0,7%	- 4,2%
Etilen polimeri	**42 018,4**	**39 376,4**	**42 822,0**	**53 324,8**	**56 995,2**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 16,2%	- 6,3%	+ 8,8%	+ 24,5%	+ 6,9%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	- 6,3%	+ 1,9%	+ 26,9%	+ 35,6%
Propilen polimeri	**20 293,6**	**22 338,9**	**30 720,5**	**30 570,0**	**42 041,1**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 23,1%	+ 10,1%	+ 37,5%	- 0,5%	+ 37,5%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 10,1%	+ 51,4%	+ 50,6%	+ 107,2%
Vinilxlorid polimeri	**10 408,6**	**12 972,0**	**18 963,5**	**23 210,4**	**25 035,6**
əvvəlki illə müqayisədə dəyişmə faizi	- 3,7%	+ 20,0%	+ 46,2%	+ 22,4%	+ 7,9%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 20,0%	+ 82,2%	+ 123,0%	+ 140,5%
Rezin və plastik kütlə məmulatları istehsalı					
Rezin şinlər	**25 616,3**	**45 945,9**	**64 046,8**	**63 977,3**	**81 389,5**
əvvəlki illə müqayisədə dəyişmə faizi	+ 10,2%	+ 79,4%	+ 39,4%	- 0,1%	+ 27,2%
bazis ili ilə müqayisədə dəyişmə faizi (2015=100%)	100,0%	+ 79,4%	+ 150,0%	+ 149,8%	+ 217,7%

Mənbə: AXT (2020).

Cədvəldə qeyd olunan sahələr arasında həcm etibarı ilə ən çox idxal olunan məhsul kimi əczaçılıq məhsullarını qeyd edə bilərik. Ən az idxal olunan məhsul kimi natrium hidroksidini göstərə bilərik.

2016-cı ildən etibarən əvvəlki ilə nisbətdə idxal həcmində artım müşahidə olunan məhsullar kimi sabun və vinilxlorid polimerini, bazis ili ilə müqayisədə həcmi yüksələn məhsul kimi isə yuxarıda qeyd olunan iki məhsulla yanaşı, propilen polimeri və rezin şinləri qeyd edə bilərik. Əvvəlki illə müqayisədə 2019-cu ildə əvvəlki ilə nisbətən idxalın həcmində ən böyük artım mineral gübrələr, propilen polimeri və rezin şinlərdə müşahidə olunmaqdadır. 2018-ci ilə nisbətən 2019-cu ildə ən az idxal olunan məhsullar kimi natrium hidroksidini, sintetik yuyucu vasitələrini qeyd edə bilərik.

Bazis ili ilə müqayisədə 2019-cu ildə idxal həcmində ən çox artım olan məhsul kimi sabun, vinilxlorid polimeri və rezin şinləri misal göstərə bilərik. Müqayisə apardığımız dövrdə ən çox azalma isə natrium hidroksidi və sintetik yuyucu maddələrində müşahidə olunmuşdur.

İdxal əməliyyatlarının reallaşdırlması zamanı önəmli istiqamətlərdən biri də gömrük fəaliyyətinin səmərəli təşkil edilməsidir. Gömrük fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində dövlət tərəfindən müxtəlif islahatlar aparılır ki, bu da işin gedişatının daha da sadələşdirilməsi, müasir texnoloji nailiyyətlərdən istifadə edilməsi, informasiyaların avtomalatlaşdırılmış qaydada

reallaşdırılması, bir sözlə idxal əməliyyatları subyektlərin razı qalmasına gətirib çıxarmaqdadır.

Digər bir istiqamət kimi isə gömrük infrastrukturlarının yaxşılaşdırılmasını qeyd edə bilərik. İnfrasturukturların yaxşılaşdırılması dedikdə, istər mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbar emalı üçün, həmçinin sərnşinlərə xidmət şəraitin yaxşılaşdırılması, istər gömrük əməliyyatlarının aparılmasını, prosesin gedişi və alınmış nəticələr barədə məlumatın ötürülməsini təmin edən sistem, vasitə və fəaliyyət növləri təkmiləşdirilməsi, istərsə də gömrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sistemi, digər EHM və kompyuter avadanlığı və s. istiqamətlərdə innovativ addımların atılmasını qeyd edə bilərik. Eyni zamanda gömrük orqanları kadrlarının normal həyat fəaliyyətinin bərpası üçün maddi, məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrastrukturun təkmilləşdirilməsini də bura aid edə bilərik (Şəkərəliyev, Şəkərəliyeva, 2015).

Müzakirə

Son dövrlərdə kimya sənayesinin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü siyasətin nəticəsində bu sahədə irəliləyiş müşahidə olunmaqdadır. Amma idxal tempindəki artım onu deməyə əsas verir ki, istehsal imkanlarımızı daha genişləndirməliyik. İstehsal imkanları ən azı ölkə əhalisinin ehtiyaclarını ödəyə biləcək səviyyədə gücləndirilməli, növbəti mərhələdə isə ixrac imkanları genişləndirilməlidir. İstehsal göstəricilərinin artırılması istiqamətləri kimi yeni sahibkarlıq subyektlərinin cəlb edilməsi üçün stimullaşdırıcı addımlar atılmalıdır. İstər potensial sahibkarlıq subyektlərinin sərfəli kreditlər əldə etməsində, istər vergi ödənişlərində güzəştlərin tətbiq olunmasında, istərsə də onların lazımı informasiya ilə təmin olunması məqsədi ilə konsaltınq xidmətlərinin göstərilməsində bu sahədə fəaliyyət göstərən qurumlar beynəlxalq təcrübədən faydalanaraq təkmilləşdirici addımlar atmalıdır. Eyni zamanda qanunvericilik bazasının daha da təkmiləşdirilməsi, bu sahələr üzrə xarici investisiya mənbələrinin təşviqi kompaniyalarının sürətləndirilməsi, innovativ tədbirlərin görülməsi bu sahə üzrə inkişafın daha qısa müddətdə baş verməsinə gətirib çıxaracaq nəticəyönümlü həmlələr hesab edilə bilər. Təbii ki, qısa müddətdə kimya sənayesi, rezin və plastik kütlə məmulatları istehsalı sahəsi üzrə bütün məhsulların istehsalına başlamaq və lazımı səviyyəyə bu istehsalı çatdırmaq inandırıcı olmaya bilər. Bu baxımdan bu iki istiqamət üzrə ölkədə istehsal üçün potensial imkanları geniş olan məhsulların istehsalına diqqəti ayrımaq, o sahələrdə ixtisaslaşmaq, digər məhsulların isə idxal fəaliyyətini davam etdirmək olar.

Nəticə / Conclusion

Ümumilikdə qeyd edə bilərik ki, istənilən bir ölkə üstünlüyə malik olduğu sahələr üzrə istehsalda ixtisaslaşmalı və bu istiqamətdə ixrac əməliyyatlarını həyata keçirlməli, digər istiqamətlərdə isə idxal prosesini reallaşdıraraq idxal-ixrac əməliyyatlarının dövri olaraq baş tutmasına şərait yaratmalıdır. İdxal əməliyyatlarının reallaşdırlması zamanı önəmli istiqamətlərdən biri gömrük fəaliyyətinin səmərəli təşkil edilməsi, digər bir istiqamət isə gömrük infrastrukturlarının təkmilləşdirilməsidir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra idxal və ixrac əməliyyatlarını sərbəst formada həyata keçirməkdədir. Dünyanın yüzdən çox ölkəsi və beynəlxalq təşikatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası idxal prosesində daha böyük miqyaslı fəaliyyət mexanizmi təşkil edə bilmişdir. Təbii ki, bu ölkələrin sayı daha da artırılmalı və bunun məntiqi nəticəsi olaraq idxal prosesi üçün geniş alternativ seçimləri yaradılmalıdır. Yeni əməkdaşlıqların olması idxal prosesində istər qiymət, istər sərfəli müqavilə şərtləri və s. istiqamətlərdə güzəştlər əldə etməyimizə gətirib çıxaracaqdır.

Kimya sənayesi üzrə idxal payının azaldılması məqsədi ilə ölkə daxilində bu istiqamətdə istehsal fəaliyyəti genişləndirilməlidir. Təbii ki, bu genişləndirmə bu sahədə çalışan sahibkarlıq subyektlərinin sayının artırılması ilə baş verməlidir. Bu məqsədlə bu sahə üzrə qanuni bazasının təkmilləşdirilməsi, dövlət tərəfindən dəstəklərin göstərilməsi, stimullaşdırıcı addımların sayının

artırılması müşahidə olunmaqdadır. Lakin atılan addımlar hər nə qədər müsbət nəticələr versə də, ölkə daxilində istehsal tempində bu artım nəzərçarpan səviyyədə deyil. Bu baxımdan neft-kimya sənayesi üzrə sahibkarların təşviq kompaniyaları daha alternativli olmalı, onlara təqdim edilən imkanlar, güzəştlər bir neçə istiqamətdə olmalıdır ki, sahibkarların bu sahə üzrə fəaliyyətə maraqları artsın.

İstifadə edilmiş ədəbiyyat / References

AS (2020). Azərbaycanın sənayesi, 2020. Statistik məcmuə. Bakı.

AXT (2020). Azərbaycanın xarici ticarəti, 2020. Statistik məcmuə. Bakı.

BASF (2019). Outlook for the Chemical Industry. https://report.basf.com/2019/en/ managements-report/forecast/economic environment/chemical-industry.html. Retrieved: February, 2021.

CIW (2020). CIW Index. Chemical industry worldwide - Statistics & Facts. https:// www.statista.com/ statistics/302063/global-chemical-imports-by-region/. Retrieved: February, 2021.

GCI (2020). GCI Index – Value of global chemical imports by region, 2019. https://www.statista.com/topics/6213/chemical-industry-worldwide/. Retrieved: 15 February, 2021.

HCH (2019). Hidden Chempions – 2019. Why is the Chemical Industry Important for the Society? Retrieved: 12 February, 2021.

Əliyev R.T. (2010). Neftqazçıxarma sənayesində sahibkarlığın inkişafının sosial-iqtisadi problemləri. Bakı: Elm.

Əliyev T., Yazar. B. (2017). Azərbaycanın kimya sənayesində sahibkarlıq mühitinin formalaşması və davamlı inkişafının başlıca istiqamətləri Bakı : Elm və Bilik.

Niftullayev V. (2002). Sahibkarlığın əsasları. Bakı: Zaman.

SYX (2016). Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, səh 96.

Şəkərəliyev A.S., Şəkərəliyeva Z.A. (2015). Gömrük işinin təşkili və idarə edilməsi. Dərs vəsaiti. Bakı.

ТЕКУЩЕЕ СОСТОЯНИЕ ИМПОРТНОЙ ДЕЯТЕЛЬНОСТИ ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Фарид Ханкишиев
докторант Университета Одлар Юрду, преподаватель, Лянкяранский Государственный Университет, факультет экономики и инновационного менеджмента, Азербайджан.
E-mail: ferid_khan@mail.ru

Аннотация. В статье проанализированы показатели импорта химической промышленности, резиновых и пластмассовых изделий Азербайджанской Республики, рассмотрены интервалы изменения отдельных химических товаров, резиновых и пластмассовых изделий, ввозимых в страну за последние пять лет. В целях надлежащего развития существующего потенциала для развития химической промышленности показаны стимулирующие шаги, предпринятые государством для сокращения объемов импортируемой продукции, увеличения производства, и предложены практические рекомендации по перспективам развития. Автор приходит к выводу, что, несмотря на улучшение правовой базы, государственную поддержку и увеличение количества стимулирующих мер по сокращению доли импорта в химической промышленности, этот рост внутреннего производства не является значительным. В этой связи компании, поощряющие предпринимателей в нефтехимической отрасли, должны быть более альтернативными.

Ключевые слова: химическая промышленность, резиновые и пластмассовые изделия, фармацевтика, импорт.